**UOT: 821.09**

**Mahirə HACIYEVA**
Filologiya üzrə fəlsəfə doktoru
Azərbaycan Dillər Universiteti
**mhacieva@hotmail.com**

# İNGİLİS ƏDƏBİYYATINDA SƏYAHƏT UTOPİYASI

**Açar sözlər:** utopiya, səyahət, cəmiyyət, dövlət, qəhrəman
**Keywords:** utopia, voyage, society, government, protagonist
**Ключевые слова:** утопия, путешествие, общество, власть, главный герой

**Giriş.** İlk növbədə yaradıcı təxəyyülün məhsulu olan bədii ədəbiyyat həm də yazıldığı dövrü və dövr insanını təcəssüm etdirir və bununla da tarixi hadisələrə ardıcıllıqla müəyyən baxış təqdim etmiş olur. İngilisdilli bədii fikirdə utopiya ədəbiyyatından danışarkən T.Mor ilk yada düşən adlardandır. İntibah dövrünün tanınan dövlət adamı, sosial filosofu olan Tomas Mor VIII Henrinin ali lord kansleri kimi yüksək vəzifəyə layiq görülmüşdü. Siyasi fəaliyyəti, dini görüşləri ilə şöhrət tapmış bu şəxsiyyət həm də ingilis ədəbiyyatında ilk utopik bədii əsərin müəllifidir. Onun 1516-cı ildə latın dilində (ingilis dilində 1551-ci ildə çap olunmuşdur) çap olunmuş "Utopiya" əsəri yeni bir istiqamət yaratdı və özündən sonra F.Bekon, H.Nevil yaradıcılığında bənzər şəkildə əksini tapdı. Belə ki, bu əsərlər dəniz səyahəti zamanı kəşf olunan utopik cəmiyyətin təsvirini, qəhrəmana məlum olan dövlət quruluşlarında çatışmayan cəhətlərin utopik dövlətlərdə həllini verməklə dövrünün sosial siyasi hadisələrinə üstüörtülü münasibət bildirmiş oldu. Dəniz səyahətləri ilə utopik dövlətlərin kəşfi ənənəsi sonrakı dövrlərdə də bədii ədəbiyyatda geniş yer tutaraq, həm də roman janrının inkişafı ilə sıx əlaqəli olan bir istiqamətdir. XVIII əsr ingilis ədəbiyyatında bu, D.Defo, C.Svift və S.Conson yaradıcılığında araşdırıla bilər.

XVIII əsr ingilis ədəbiyyatı inkişaf edən, imperiya gücü olan, durmadan koloniyalarını genişləndirən və qonşularından irəlidə olan aparıcı bir Avropa ölkəsində formalaşırdı. Bu, ölkə daxilində bütün problemlərin həll edilmiş olması anlamına gəlmir. D.Defo dövrünün cəmiyyətini bu cür qruplaşdırırdı: "1. The great, who live profusely. 2. The rich, who live plentifully. 3. The middle sort, who live well. 4. The working trades, who labour hard, but feel no want. 5. The country people, farmers etc., who fare indifferently. 6. The poor, who fare hard. 7. The miserable, that really pinch and suffer want" [7] (1. İsrafçılıqda yaşayan zənginlər. 2. Bolluq içində ömür sürən varlılar. 3. Yaxşı yaşayan orta təbəqə. 4. Əmək çəkən və ehtiyac hiss etməyən işgüzarlar. 5. Kənd əhalisi, laqeyd yanaşan fermerlər və s. 6. Çətinlik içərisində qalan kasıblar. 7. Həqiqətən əzab çəkən səfillər). Bu cür sosial qeyri-bərabərliklə yanaşı, ölkə daxilində dil, dini inanc fərqlilikləri və siyasi qarşıdurmalar da yox deyildi. Bütün bunlar dövr ədəbiyyatına da təsir edirdi. 1695-ci ildən mediada dövlət senzurasının zəifləməsi ilə siyasi ədəbiyyatın yayılması sürətləndi. Buna görə də C.Sviftin kəskin satirası və D.Defonun oçerkləri yayıldı. Onların yaradıcılığı yalnız siyasi pamfletlərlə deyil, həm də roman janrının inkişafı ilə yadda qalır. Artıq utopiya ədəbiyyatı macəra təsvirlərindən daha çox siyasi və sosial tənqidi, eyni zamanda qəhrəman obrazın inkişafı ilə fərqlənirdi. Dəniz səyahəti

dövr üçün əhəmiyyətini saxladığından utopiya əsərləri dəniz səyahətlərini əks etdirir, lakin bu səyahətlərdə kəşf olunan utopik dövlətlərin təsvirini deyil, qəhrəmanların utopiya axtarışını, hətta bilavasitə bu ideal cəmiyyətin formalaşmasında iştirakını və ya mənəvi təkmilləşməsini əks etdirir. Bu da onu əvvəlki dövrlərdən fərqləndirir. Deməli, XVI əsrdə səyahət utopiyası fiziki yerdəyişmədirsə, XVIII əsrdə həm də mənəvi yolçuluq deməkdi.

**Səyahət həyat seçimi kimi.** S. Conson əsərinin adının "The Choice of Life or the History of Prince of Abissinia" ("Abisina şahzadəsinin həyat seçimi və hekayəsi") [6, s.14] olmasını nəzərdə tuturdu. Bu ad əslində yalnız bir əsərin deyil, dövrün utopik əsərlərinin bölüşdüyü ideyanın əksidir. Bu əsərlərdə səyahət həyat seçimi, yeni həyat axtarışıdır.

Qeyd etdiyimiz kimi, ingilis ədəbiyyatında utopiya ədəbiyyatı yarandığı ilk vaxtlardan, orta əsrlərdən başlayaraq səyahət, xüsusən də dəniz səyahəti üzərində qurulmuşdur. Bu da təsadüfi deyil. Yeni kəşflər dövründə, dünyanın dəniz səyyahları tərəfindən tədqiq olunduğu bir dövrdə ərsəyə gələn əsərlər bu mövzuda yazılmaya bilməzdi. Utopiya adlanacaq bir yerin insanlara bəlli bölgələrdən uzaqda olması fikri də, müəyyən mənada, məlum dünyada belə bir dövlətin mümkünsüzlüyü, lakin haradasa uzaqlarda var olması ümidinin əksi idi. T.Mor yaradıcılığı ilə bədii fikirdə özünə yer tapan bu ideya F.Bekonun "Yeni Atlantis" (1627), H.Nevilin "Şam adası" (1668), Fransis Qoduvinin "Aydakı adam" (1620-ci illərin sonu), Marqaret Kavendişin "Alovlu dünya" (1666) əsərləri ilə bənzər şəkildə səyahət utopiyasını davam etdirdi.

Növbəti dövrdə də əsərlər bu istiqaməti saxladı, amma, təbii ki, fərqli bir inkişaf xətti də təqdim etdi. Adları çəkilən əsərlərdə qəhrəmanlar üçün yeni səyahətlər macəradır, onlar rastlaşdıqları utopik cəmiyyətin təsvirini verməklə kifayətlənirlər. Lakin XVIII əsr ingilis ədəbiyyatında utopiya əsərlərində utopik qəhrəmanların yaşadığı bəlli bir inkişaf xəttinin içərisindədir, onlar birbaşa olaraq utopik cəmiyyətin, daha doğrusu, onlar üçün utopiya olacaq bir həyatın axtarışındadırlar və bu axtarışın özü daha mühümdür. Roman janrının inkişafa başladığı bu dövrdə utopiya romanları həm quruluşu, həm də obrazların inkişafına görə əvvəlki dövrlərdən fərqlidir.

Üç əsəri, Daniel Defonun "Robinzon Kruzo" (1719), Conatan Sviftin "Qulliverin səyahətləri" (1726) və Samuel Consonun "Abisina şahzadəsi Rasselasın tarixi" (1759) əsərlərini qeyd etmək yerinə düşər. Bu əsərlər sadəcə macəra romanları deyil. Didaktik xarakter daşıyan bu əsərlərdə qəhrəmanlar müəyyən bir yol keçərək həm maddi, həm də mənəvi dəyərlərə münasibətlərini dəyişirlər. Hər üç əsərin qəhrəmanı yeni məlumatlar əldə etmək, yeni yerləri gəzmək, dünyanı kəşf etmək və ən əsası, xoşbəxtlik tapmaq arzusu ilə səyahətə çıxır. S.Consonun qəhrəmanı dəfələrlə həyat seçimi etmək arzusunu qeyd edir. Bu arzu, əslində, XVIII əsr insanının arzusudur və bu seçim xoşbəxtliyə aparan yolun məhz səyahətlərdə tapılacağı ümidini ifadə edir. Bu ümid Robinzon Kruzonu fərqli macəralarla yanaşı, 28 il 2 ay 19 gün bir adada saxlayır, Qulliveri təkrar-təkrar rahat həyatından, evindən və ailəsindən uzaqlarda, naməlum və qeyri-adi ölkələrdə dolaşdırır, Rasselası qayğısız şahzadə həyatından, firavanlıq, şənlik, bolluq və bərəkət dolu vadidən yad bir dünyaya səyahətə aparır.

**Səyahət müdrikliyə aparan yol kimi.** Robinzon Kruzonu adada yaşadığı vaxt ərzində narahat edən yalnız fiziki çatışmazlıqlar deyil, həm də mənəvi yoxsulluqdur. Bunu düşünərək çıxış yolunu Yaradana ibadətdə, əlində olanın

dəyərini bilməkdə, düşdüyü hər çıxılmaz vəziyyətdə bir işıq ucu tapmaqda görür və müqəddəs kitabda deyilənləri xatırlayır. "Call on me in the Day of Trouble, and I will deliver, and thou shalt glorify me" ("Çətinliyə düşəndə məni çağır və məni vəsf edəcəksən") [81]. Bu minvalla adada yaşayaraq onu bir insanın yaşamaq üçün ehtiyacı olan vasitələrlə təmin edən qəhrəman bir həyatın verə biləcəyi ən müdrik dərsləri öyrənmiş olur və bu qənaətə gəlir ki, "It was now that I began sensibly to feel how much more happy this Life I now led was, with all its miserable Circumstances, than the wicked, cursed, abominable Life I led all the past Part of my Days" ("Bütün səfil şəraitinə baxmayaraq, əvvəlki lənətli, iyrənc, murdar günlərlə müqayisədə hal-hazırda necə bir xoşbəxt həyat sürdüyümü yalnız indi dərk etdim") [1, s.96].

Qulliver səyahəti boyu axtarışında olduğu insan zəkası, idrakı, mənəvi dəyərləri ən yüksək formada son səyahətində tapır. Fərqli, qeyri-adi cəmiyyətlərin təsviri qəhrəmanın insan və həyat haqqında mülahizələrini əks etdirir və onun üçün kamil cəmiyyət olan "Houyhnhnms" icması ilə sona çatır. Bu utopiyanın bir hissəsi olmaqdan məhrum olması onun üçün iztirablı həyata çevrilir.

Rasselas cah-calal içərisində həyat sürən bir şahzadədir, lakin onu düşündürən məskunlaşdığı, daha doğrusu, qapadıldığı vadidən kənarı görmək, özünün kim olduğunu, həyatdan nə istədiyini dərk etməkdir. Bu məqsədlə bacısı ilə birlikdə vadidən qaçıb səyahətə başlayan qəhrəman bu səyahətdə gördükləri və görüşdüyü insanlar sayəsində fərdi inkişafa nail olur.

Bu əsərlərdə səyahət həm də əsirlikdən qurtulma deməkdir. Robinzon Kruzo adadakı həyatını nağıl edərkən belə bir qeyd edir: "It was the sixth of November, in the sixth Year of my Reign, or my Captivity, which you please" ("Bu noyabrın altısı səltənətimin və ya istəyirsiz əsirlik deyək, yeddinci ili idi") [1, s.117]. Burada diqqəti çəkən məqam qəhrəmanın bir adada tək-tənha ilişib qalması, müasiri olduğu dünyanın verə biləcəyi rahatlıqdan uzaq düşməsi deyil, bu adadan səyahət edə bilməməsidir. Baxmayaraq ki, adanın yeganə sahibi, deməli, o səltənətin yeganə iddiaçısıdır, buradakı həyatı həm də bir əsirlikdir, çünki səyahət etməsi mümkün deyil. Bu məqamı, eyni zamanda, başqa cür də izah etmək olar. D.Defo sanki hər səltənətin əslində bir əsirlik olduğunu, mütləq hakimiyyətə can atan insan üçün bu gücün boyunduruğa çevrildiyini qəsd edir.

Robinzon Kruzo adaya gəldikdə onu "Island of dispear" ("ümidsizlik adası") [1, s. 60] adlandırır. İllər ərzində yaşaması üçün mümkün ən rahat şəraiti yaratdıqdan sonra buranı tək özünün kralı olduğu bir dünya hesab edən qəhrəman artıq özünü tamamilə xoşbəxt hiss edir: "I was Lord of the whole Mannor; or if I pleas'd, I might call my self King, or Emperor over the whole Country which I had Possession of. There were no Rivals. I had no Competitor, none to dispute Sovereignty or Command with me" ("Malikanənin tək sahibi idim; istəsəydim, özümü kral, ya da sahib olduğum ölkənin imperatoru adlandırardım; rəqibim yox idi. Suverenliyi, ya idarəetməni məndən tələb edəcək kimsə yox idi") [1, s. 109]. Bəs bu, insanı razı sala biləcək bir həyatdırmı? Niyə qəhrəman bu adadan getmək arzusundadır? Bunu tənha olması ilə izah etmək olmaz. Vaxt keçdikcə onun adasına yeni qonaqlar da gəlir. Lakin hələ də yeganə arzusu vaxtilə böyük çətinliklə, hətta valideynlərinin iznini almadan qaçdığı ölkəyə geri qayıtmaqdır. Bu, insan təbiətindəki səbatsızlığa, utopik və distopik yaşamın insanın daxili ehtiyacı, dünyabaxışı ilə əlaqəli bir yanaşma olduğunu deməyə əsas verir.

Qulliver gəzdiyi hər bir ölkədə, həmçinin öz doğma vətənində də fikir rahatlığı tapmır. Onun istəmədən tərk etmək məcburiyyətində qaldığı və vətənində belə unuda bilmədiyi yeganə ideal ölkədən uzaq düşməsi, insanlar arasında yaşamağı qəbul etməsi özlüyündə ayrıca bir mənəvi səyahətə çevrilir. Sözsüz ki, C.Sviftin möhtəşəm qələminin məhsulu olan bu əsər əvvəldən axıra kimi kəskin satiradır və hər bir təsviri ikimənalı mahiyyət daşıyır.

Rasselas üçün həyat daha fərqlidir. Əgər digər əsərlərdə qəhrəman utopik aləmə səyahət edir və oradakı yerlilərə gəldiyi cəmiyyəti təsvir edirsə, burada əksinə, qəhrəman tamamilə firavan yaşadığı utopiyada kənar dünyada baş verənlər barədə təəccübünü doğuran hekayələr dinləyir. Onun üçün yaşadığı utopiya zindandır. Burada utopiya və distopiyanın kəsişməsi, utopik cənnətin zindan xüsusiyyəti nəzərə çarpır. Bu həyatı zindan edən Robinzon üçün səyahətdən məhrum olma, Qulliver üçün insanlarda görə bilmədiyi əqli özünün heç zaman yaşaya bilməyəcəyi ideal ölkədə tapmasıdırsa, Rasselas üçün bu, həyat seçimi edə bilməməsindədir. Deməli, qəhrəmanları səyahətə sövq edən də məhz bu amildir – səyahət sevdası, idrak axtarışı və seçim şansı.

Bu dövrdə qələmə alınmış digər bir maraqlı əsər isə Sarah Skotun “Millenium zalı” (1762) əsəridir. Feminist utopiyası tədqiqatçılarının xüsusi olaraq diqqətini cəlb edən bu əsər müəllifin şəxsi həyatı ilə, dövrünün müəyyən sosial prosesləri ilə bağlılığı ilə yanaşı, əsasən qadınların yaratmış olduğu bir cəmiyyətin təsviri ilə seçilir. Müəllifin keşməkeşli həyatı, bacısının təşkil etdiyi “Bluestockings” cəmiyyəti əsərlə çox səsləşir. Sarah Skotun real olaraq qadınlara xeyriyyəçilik cəmiyyətini təsis etmiş olduğu da məlumdur. Deməli, burada təsvir olunan utopiya sırf bir xəyal deyil, həm də praktikada təcrübədən keçirilmişdir. Haqqında danışdığımız digər əsərlərdəki kimi, bu əsərdə də müəyyən mənada utopik səyahət vardır. Lakin bu, sırf əxlaqi dəyərlərin kəsb olunduğu mənəvi səyahətdir. Yaşadığı dövrdə qadınlardan gözlənilən keyfiyyətləri nəzərə alaraq bu yolçuluğun müəllifin nəzərində yeganə düzgün istiqamət olduğunu deyə bilərik. Buna görə də utopiya ədəbiyyatı yarandığı ilk dövrlərdən real hadisələrə əsaslanan və mütərəqqi islahatlara bəzən dolayı yolla, bəzən də praktik şəkildə nail olmaq cəhdidir.

Dövrün utopiya əsərlərində siyasi və ictimai tənqid özünü həm də distopiya elementlərində göstərir. Maraqlı cəhət odur ki, bu iki bir-birinə əks görünən istiqamət eyni əsər daxilində inkişaf edir. Bunu dövrün ən tanınan əsərlərində görmək mümkündür. Robinzon Kruzo öz adasında mütləq hakim, insanın yarada biləcəyi ən rahat yaşam yaratmış olsa da, bu, onun utopiyada olduğunu göstərmir. Rasselas utopik görünən həyatını naməlum dünyaya dəyişməyə hazırdır. Qulliver isə gəzdiyi qeyri-adi ölkələrin hər birinin təhlükələrlə dolu bir tərəfini təsvir edir. Ümumiyyətlə, bu mənada Svift yaradıcılığı xüsusilə maraqlıdır.

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT:

1. Daniel Defoe. Robinson Crusoe. Oxford: Oxford Universuty Press, 2007, 321 p.
2. Francis Godwin. The Man in the Moone. Claremont: Broadview editions, 2009, 176 p.
3. Jnathan Swift. Gulliver’s Travels. Oxford: Oxford university Press, 2005, 362 p.
4. Margaret Cavendish. The blazing World and Other Writings. London: Penguin Books, 2004, 272 p.

5. Oxford world Classics. Three Modern Utopias. Oxford: University Press, 1999, 250 p.
6. Samuel Johnson. The History of Rasselas Prince of Abissinia. Oxford: Oxford University Press, 2009, 157 p.
7. https://www.britannica.com/place/United-Kingdom/18th-century-Britain-1714-1815
8. http://www.gutenberg.org/dirs/2/6/0/5/26050

***Mahira Hajiyeva***

**Utopian voyage in english literature**

***S u m m a r y***

As we can see, the utopia of travel, which originated in English literature in the 16th century, continues into subsequent centuries in the form of stories about the main characters who seek adventure, material well-being and moral prosperity. The road they choose is more important than their destination. The utopia depicted is not a life spent in material luxury, but rather in a spiritual comfort, moral peace, and mental development.

In the 18th century, utopian literature is still based on travel experiences but has a distinguishing feature. This is the development of the protagonist's character. Travel means both physical travel and spiritual travel. This journey begins with the protagonist looking for new life, and as a result, he reaches moral maturity, calmness and knowledge.

The authors we are discussing are people who played an important role in the political, social and cultural life of their time. Therefore, it would be a mistake to consider their work only from cultural point of view. Utopia is usually viewed as a fictional tale. It is clear, however, that writers used utopia to indirectly portray the social and political problems of their time. These problems are described as solved in utopian countries. These include political criticism, social differentiation, race and gender issues. In the utopian literature of the time, this critical approach also manifests itself through satirical elements and dystopian features.

***Махира Гаджиева***

**Утопия путешествия в английской литературе**

***Р е з ю м е***

Как видно, утопия путешествий, зародившаяся в английской литературе в XVI веке, продолжается и в последующие века в виде рассказов о главных героях, которые ищут приключений, материального благополучия и нравственного процветания. Очевидно, что выбранная дорога важнее пункта назначения. Изображенная утопия – это не жизнь, проведенная в материальной роскоши, а скорее духовный комфорт, нравственное спокойствие и умственное развитие.

BXVIII веке утопическая литература по-прежнему была основана на опыте путешествий, но имеет отличительную особенность. Это развитие персонажа – главного героя. Понятие путешествие означает как физическое, так и духовное путешествие. Это путешествие начинается с того, что главный герой ищет новую жизнь, и в результате он достигает моральной зрелости, спокойствия и знаний.

Обсуждаемые нами авторы – это люди, сыгравшие важную роль в политической, социальной и культурной жизни своего времени. Поэтому было бы ошибкой рассматривать их творчество только с культурной точки зрения. Само собой, разумеется, что утопия обычно рассматривается как вымышленная сказка. Однако очевидно, что писатели использовали утопию для косвенного изображения социальных и политических проблем своего времени. Эти проблемы описаны как решенные в утопических странах. К ним относятся политическая критика, социальная дифференциация, расовые и гендерные вопросы. В утопической литературе того времени этот критический подход проявляется также через сатирические элементы и антиутопические черты.